RAMİLƏ ƏLİYEVA GƏNCOĞLU

# SİRLİ SANDIQ

Tərcüməçi:
Aygül Pəncəliyeva

QANUN NƏŞRİYYATI

RAMİLA ALİYEVA GENCOĞLU

# GİZEMLİ SANDIK

“Sizin evinizdə sirli-sehrli sandıq varmı? Böyük, köhnə, hətta nəhəng qıfılla kilidlənmiş sandıq... Bizim evimizdə var”. Bu sözlərlə başlayan hekayənin qəhrəmanı yeddiyaşlı Şipşidir. O böyüyəndə detektiv olmaq istəyir. Onun nə insan, nə də heyvan olan Şuşu adında bir macərasevər dostu var. Dostlar, bir gecə Şipşi ilə Şuşu yeni macəra axtarışına çıxırlar – nənənin sirli sandığını açmaq istəyirlər. Bəs onların başına nə gələcək? Sirlərlə dolu sandıqda nələri tapacaqlar? Bunu bilmək istəyirsinizsə, Şipşinin macərasını oxuyun.

**Ramila Aliyeva Gencoğlu** **Gizemli sandık**
**Ramilə Əliyeva Gəncoğlu** **Sirli sandıq**

Janr: uşaq ədəbiyyatı, nağıllar
Yaş qrupu: 6+
Ölçü: 190x250 mm
Cild: yumşaq
Səhifə sayı: 48

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Aygül Pəncəliyeva
Redaktor: Cəlil Cavanşir
Korrektor: Həyat Hacıyeva
İllüstrasiyalar: Ramilə Əliyeva Gəncoğlu
Mətn dizaynı: Aytac Abdulova
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-608-61-8

© Qanun Nəşriyyatı, 2026
© NAR YAYINLARI

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

Sizin evinizdə heç sirli-sehrli sandıq varmı? Böyük, köhnə, solğun rənglərə boyanmış, hətta nəhəng qıfılla kilidlənmiş sandıq... Bizim evimizdə var.



Çox qəribədir... Evimizdə heç kim bu sandığın qıfılını açmağa cəsarət etmir. Çünki nənəm bizə onu açmağa icazə vermir.
Bu sandığın içində gizli bir şey var idi.
İlk işimiz bu sandığı açmaq olacaqdı.



# ŞİPŞİ VƏ ŞUŞUNUN AXTARIŞLARI

Mənim adım Şipşidir, anam, nənəm və Şuşuyla yaşayıram. İki gün sonra ailəmlə birlikdə yeddinci ad günümü qeyd edəcəyik. Nənəmin dediyinə görə, mən bir az dəcələm, ona görə də başıma maraqlı hadisələr gəlir.

Dostlar, indi siz məndən Şuşunun kim olduğunu soruşacaqsınız. Şuşu nə insandır, nə də heyvan. Onun nə olduğunu təsvir etmək çox çətindir. O mənim yeganə macərasevər dostumdur. Şuşu mənim yanıma gecələr, hamı yatdıqdan sonra gəlir. Böyük, mavi gözləri onun üzünə çox yaraşır. Biz həmişə birlikdə müxtəlif, fərqli macəralar axtarır, gizli missiyaların öhdəsindən ustalıqla gəlirik. Bizim bu sirrimizi heç kim bilmir.





Mən böyüyəndə detektiv olmaq istəyirəm. Nənəm bu peşənin qızlar üçün olmadığını deyir. Ancaq mənim fikrimcə, seçdiyimiz peşənin qız və oğlan olmağımızla əlaqəsi yoxdur, əsas işimizi sevməyimiz və çalışaraq uğur əldə etməyimizdir. Nə isə... İndi sizə yeni planımızdan bəhs edim.

Bir gecə mən və Şuşu yeni macəra axtarırdıq. Uzun zamandır ağlımdan keçən fikrimi onunla bölüşdüm. Nənəmin sirrini öyrənmək istəyirdim. Şuşu buna çox sevindi. Nənəmin sirli sandığı ona da çox maraqlı gəlirdi.

Heç kim eşitməsin deyə barmağımızın ucunda sandığa yaxınlaşdıq. Niyyətimiz sandığı açmaq idi, ancaq ən vacib məsələni, sandığın qıfıllı olduğunu unutmuşduq. Şuşuyla bir-birimizə baxdıq, ancaq heyif ki, açarın harada olduğunu bilmirdim. Bu vaxt Şuşunun ağlına bir fikir gəldi. Açar nənəmin otağındakı köhnə dolabda ola bilərdi. Gizlincə dolaba baxmaq qərarına gəldik.

Dolab köhnə olduğu üçün qapısı cırıldayırdı. Nənəm bu səsə oyana bilərdi. Ehtiyatla nənəmin otağına girib, yavaşca dolabın qapısını açdıq. Dolabın çoxlu rəfləri var idi. Bir-bir bütün rəfləri axtardıq, amma açarı tapa bilmədik. Şuşu ən üstdəki rəfə dırmaşıb axtarışı davam etdirdi. Nə qədər ehtiyatlı davransa da, əli nəyəsə toxundu və səs gəldi.

– Bir az yavaş ol, nənəm oyanacaq, – pıçıltıyla dedim.

Bir neçə dəqiqə sonra Şuşu böyük gözlərində sevinclə mənə baxdı. Açarı tapmışdı. İndi nənəm oyanmamış oradan uzaqlaşmalı idik.

